**Qalib SAYILOV**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Folklor İnstitutunun*
*aparıcı elmi işçisi*
*e-mail: qalibsayilov@mail.ru*

# MƏHƏBBƏT DASTANLARINDA İSLAMİ GÖRÜŞLƏRİN TƏSƏVVÜFİ-İRFANİ MOTİVLƏNMƏ SƏVİYYƏSİ

*Galib SAILOV*
**THE LEVEL OF SUFI MOTIVATION OF ISLAMIC THOUGHTS IN LOVE EPOSES**

**Summary**

Among the Azerbaijan folklore genres, rich in various forms of Islamic thoughts, are undoubtedly the love eposes. In these eposes one can meet the most basic concepts, doctrinal concepts of Islam, theological metaphors, including the names of saints of all religions, including Islam, etc. No doubt, love eposes are rich in such Islamic elements. But here there is one basic methodological point and its ignoring is often misleading the researchers. So, in love eposes, Islamic thoughts are not motivated directly, but at the level of Sufi symbols. In them the Islamic thpoughts were in all cases veiled by a Sufi veil. The reason of it is that Sufism is a heterodox doctrine formed on the basis of orthodox Islam. Allah and the Holy Quran stand on the basis of Sufism and Islam. But unequivocally must confirm that, and the idea of "Allah" in Sufism and the "Quran" do not remain in the primary divine status, changing turn into a new phenomenon - the heterodox doctrine.

**Key words:** Islam, folklore, love eposes, ashug from Allah, divine buta

*Галиб САИЛОВ*
**УРОВЕНЬ СУФИЙСКОЙ МОТИВАЦИИ ИСЛАМСКИХ ВОЗЗРЕНИЙ В ЛЮБОВНЫХ ДАСТАНАХ**

**Резюме**

Среди азербайджанских фольклорных жанрах, богатым самыми разными формами Исламских воззрений, без сомнения, являются любовные дастаны. В этих дастанах можно повстречать самые основные понятия, доктринальные концепты ислама, теологические метафоры, в том числе, имена святых всех религий, включая Ислам и т.д. Несомненно, любовные дастаны богаты такими исламскими элементами. Но здесь есть один основной методологический момент и его игнорирование часто вводит в заблуждение исследователей. Так как, в любовных дастанах исламские воззрения мотивируются не напрямую, а на уровне суфийских символов. В них исламские воззрения во всех случаях были завуалированы суфийским покрывалом. Причиной этому является то, что суфизм – это гетеродоксальное учение, сформированное на основе ортодоксального Ислама. На основе суфизма и Ислама стоит Аллах и Коран. Но, однозначно должны подтвердить что, и идея "Аллаха" в суфизме, и "Коран" не остаются в первичном божественном статусе, изменяясь, превращаются в новое явление – гетеродоксальное учение.

**Ключевые слова:** Ислам, фольклор, любовные дастаны, ашуг от Бога, божественная бута

**Məsələnin qoyuluşu:** "İslami ideya" adı altında ümumləşdirdiyimiz İslam dini görüşləri folklorun müxtəlif janrlarında fərqli motivlənmə səviyyələrinə ma-

likdir. Bu, hər şeydən əvvəl hər bir janrın gerçəkliyi əks etdirmə imkanları ilə müəyyənləşir. Hər bir janrın gerçəkliyə münasibətdə öz tutumu, öz diapozonu var. Bunu, sadə dillə, pəncərə metaforası ilə müqayisə etmək olar. Hər bir pəncərənin təsvir imkanları onun ölçüləri ilə bağlı olur. Böyük pəncərə çölün daha böyük sahəsini göstərdiyi kimi, kiçik pəncərə də müvafiq olaraq kiçik xronotopu əhatə edir. Janrlar da belədir. Hər bir janrın konkret ölçülərə malik pəncərəsi var və bu pəncərə gerçəkliyin həmin janrda hansı kəmiyyət və keyfiyyət ölçüsündə əks olunduğunu müəyyənləşdirir. Bu da öz növbəsində Azərbaycan folklronda islami ideyanı janrlar və növlər səviyyəsində öyrənməyi zərurətə çevirir. Bu cəhətdən diqqəti epik növün janrı olaraq məhəbbət dastanları cəlb edir.

**İşin məqsədi:** Tədqiqatın aparılmasında başlıca məqsəd məhəbbət dastanlarında islami görüşlərin təsəvvüfi-irfani motivlənmə səviyyəsini araşdırmaqdır.

Azərbaycan folklor janrları içərisində islami görüşlərin ən müxtəlif formaları ilə zəngin olan janr, heç şübhəsiz ki, məhəbbət dastanlarıdır. Bu dastanlarda islam dininə aid olan bütün əsas anlayışlara, doktrinal konseptlərə, teoloji metaforalara, o cümlədən İslam da daxil olmaqla səmavi dinlər üçün xarakterik olan müqəddəslərin adlarına və s. bol-bol rast gəlinir. Elə təkcə bir fakta – məhəbbət dastanlarının qəhrəmanı olan Haqq Aşiqinin sınağa çəkilməsi motivinə diqqəti cəlb etsək, məsələyə tam aydınlıq gələr. Bu dastanların hamısında qəhrəmanın Haqq Aşiqi olub-olmaması imtahan edilir.

M.H.Təhmasib yazır ki, məhəbbət dastanlarımızın, demək olar ki, hamısının, "Kitabi-Dədə Qorqud" və "Koroğlu" kimi qəhrəmanlıq dastanlarımızın da bir sıra boy və qollarının əsas məzmunu, yəni süjeti qəhrəmanın öz butasına çatmaq uğrunda apardığı mübarizənin təsvirindən ibarətdir. Bu süjeti, əhvalatı, əsasən, dörd hissəyə bölmək olar:

I. Qəhrəmanın anadan olması və ilk təlim-tərbiyəsi

II. Qəhrəmanların, yəni Aşiq və Məşuqənin buta almaları

III,Qabağa çıxan maneələr və onlara qarşı mübarizə

IV. Müsabiqə və qələbə (11, 65).

Başqa tədqiqatçlar da sınaq/imtahan motivinin məhəbbət dastanlarının süjeti üçün xarakterik olduğunu təsdiq etmişlər. Türk alimi Doğan Kaya Azərbaycanda "Qul Mahmud" adı ilə tanınan dastanın türk variantı olan "Mahmud ilə Nigar" hekayəsini süjetin mənalı hissələrinə ayırarkən imtahan motivini ayrıca göstərmişdir (12, 65).

Bu imtahan, sözün həqiqi mənasında, suallarla müşayiət olunan sınaqdır. İmtahan deyişmə formasında aparılır. Aşiqə şeirlə sual verilir, o da bu sulları şeirlə cavablandırır. Suallar gizli/batini biliklərlə bağlı olur. Bunların cavabını yalnız haqq aşiqliyi vergisi alana adamlar tapa bilər. Əgər aşiq həqiqi haqq aşiqi, yəni Haqdan buta verilmiş aşiqdirsə, o, bu sualların hamısına cavab verir. Suallar isə bütün hallarda bu və ya digər şəkildə İslam dini ilə bağlı olur. "Qurbani" dastanının Diri versiyasından Aşıq Heydərlə Qurbani arasında bu tipli bir deyişməyə diqqət edək:

**Aşıq Heydər dedi:**

Səndən xəbər alım, ay bala aşıq,
O nədi ki, göydən haça gəlibdi?
Yüz iyirmi dörd min peyğəmbər haqdı dünyada,
Əfzəli içində neçə gəlibdi?

**Aldı Qurbani:**

Al cavabın deyim, ey böyük aşıq,
O qələmdi, göydən haça gəlibdi.
Yüz iyirmi dörd min peyğəmbər haqdı dünyada,
Əfzəli yeddidi, neçə gəlibdi.

**Aldı Heydər:**

O kim idi ərşdə qızdırdı tası?
O kimdi Turda qaldı əsası,
İsmayıla gələn qoçun anası
Hansı ayda, gündə qoça gəlibdi?

**Aldı Qurbani:**

Həzrət Əli ərşdə qızdırdı tası,
Musa idi Turda qaldı əsası,
İsmayıla gələn qoçun anası
Çərşənbə günündə qoça gəlibdi.
Aşıq Heydərin sözü olmadı (2, 108).

Deyişmədə islami görüşlərə aid aşağıdakı elementləri görürük:
~ Göydən gələn qələm;
~ Yüz iyirmi dörd min peyğəmbər;
~ Yeddi əsas peyğəmbər;
~ Həzrət Əli (ə.);
~ Musa peğəmbər (ə.);
~ Musanın Kəlimullahın Allahla (c.c.) danışdığı Tur dağı;
~ İsmayıl peyğəmbər.

Əlbəttə, məhəbbət dastanları bu cür islami elementlərlə zəngindir. Ancaq burada bir mühüm metodoloji məqam vardır və onun nəzərə alınmaması tədqiqatçıları çox zaman çaşdırır. **Belə ki, məhəbbət dastanlarında islami görüşlər birbaşa deyil, təsəvvüfi-irfani simvollar səviyyəsində motivlənmişdir. Burada islami görüşlər bütün hallarda təsəvvüfi-irfani dona bürünmüşdür.**

Bəs bunun səbəbi nədir?

**Səbəbi təsəvvüfün ortodoks əsaslara malik İslam dini üzərində təşəkkül tapmış heteredoks təlim olmasıdır.** Yəni İslam dini sufinin mənəvi kamilləşmə yolunda "şəriət" statusunda yalnız ilkin pilləni təşkil edir:

**1. Şəriət** – İslam dininin şəri hökmlərinin əxz edilməsi;
**2. Təriqət** – nəfsin cismani təmrinlərlə ram edilməsi və dəyişdirilməsi;
**3. Mərifət** –idraki kamilləşmə mərhələsi (ariflik məqamı);

**4. Həqiqət** – Allaha qovuşma.

Göründüyü kimi, burada İslamla üst-üstə düşən yalnız birinci mərhələdir. Bu mərhələdən sonra gələn mərhələlər İslam platformu üzərində qurulsa da, İslamda yoxdur və islami görüşlərin heteredoks əsaslar üzərində inkişaf etdirilməsinin nəticəsdir.

Azərbaycanda məhəbbət dastanlarının sufi semantikasının öyrənilməsinə, əsasən, sovet dönəmindən sonra başlanılmışdır. Bu tədqiqatlar məhəbbət dastanlarından daha çox sufi simvolların öyrənilməsinə həsr olunmuş, mətnin poetik struktur semantikası kənarda qalmışdır. Yalnız mərhum prof. Məhərrəm Cəfərlinin tədqiqatları (4; 57) bu baxımdan fərqlənməklə, məhəbbət dastanlarının poetik strukturunun təsəvvüfi-irfani semantika baxımından öyrənilməsi sahəsində klassik araşdırmalar olaraq qalmaqdadır.

Məhəbbət dastanlarının əsas ideyası haqq aşiqliyidir. Haqq aşiqiliyi qəhrəmana buta olaraq verilir. Qəhrəman butavermə ilə tamamilə başqa bir şəxsə – haqq aşiqinə çevrilir. “Qurbani” dastanının Diri versiyasına diqqət edək. Buta başqa aşiqlərdə olduğu kimi, ona da yuxuda verilir:

“Qurbaninin öz arzusuna görə yuxuda Həzrət Əli ona badə verib dedi:

– Qurbani, al bu badəni, gör haranı görürsən?

Qurbani badəni əlinə aldı, baxdı və dedi:

– Gəncə şəhərini görürəm. Orada bir güllü baxça var və güllü baxçanın içində qırx nəfər qız görürəm. O qızların içində bir nəfər qız var, o qədər gözəldir ki, on beş gecəlik ay kimi hər yerə işıq salır.

– Ay oğul, o qız Gəncəli Abdulla xanın bacısı qızı Pəri xanımdır. Onu sənə, səni də ona buta verdim. Çox çəkməz ki, sən öz istəyinə çatarsan. Amma çox çətinliklərə düşəcəksən.

Qurbani badəni nuş etdi. Badənin zərbindən onun ağlı başından çıxdı” (2, 98).

Qurbanini yuxudan oyada bilmirlər. Əlac etmək üçün qarıları çağırırlar. “İkinci qarı dedi:

– Oğlanın dərdi eşq dərdidi. Onun üzünə su səpin, qoyun ayılsın, özü dərdini desin.

Bu zaman Qurbaninin məktəb yoldaşları Diri dağının sərin sularından gətirib, onun üzünə səpdilər. Bir azdan sonra Qurbani ayıldı və atasının üzünə baxdı. Atası ondan soruşdu:

– Bala, sənə nə olub ki, belə edirsən?

Qurbani dedi:

– Ata, dilimlə desəm, dilim kabab olar, saz gətirin, dərdimi sizə saz ilə deyim. Ona tez saz gətirib verdilər. Qurbani sazı alıb, belə başladı:

Yatmış idim xabi-qəflət içində,
Onda gördüm: oyan, oyan, dedilər.
Oyandım qəflətdən, açdım gözümü,
Min bir kəlmə mənə bəyan dedilər.

Qəflətdən ayıldım, açdım gözümü,
Xaki-övliyaya sürtdüm üzümü,

Dindirdilər, haqq danışdım sözümü,
Al, iç abi-kövsərdən, qan, dedilər.

Qurbani der: çıxdım dağ səhrasına,
Könlüm qalxdı, düşdü eşq sevdasına,
Bir siqal verdim könlüm pasına,
Məğribdən məşriqə bəyan dedilər" (2, 98-99).

Burada ilk növbədə Buta verən Həzrət Əlinin (ə.) sözləri diqqəti cəlb edir: "Ay oğul, o qız Gəncəli Abdulla xanın bacısı qızı Pəri xanımdır. Onu sənə, səni də ona buta verdim. Çox çəkməz ki, sən öz istəyinə çatarsan. Amma çox çətinliklərə düşəcəksən".

Biz burada üç tale hokmü görürük:

1. Pərinin Qurbaniyə buta verilməsi ilahi hökm – haqq aşiqliyidir;

2. Yer üzündə heç kəs, heç bir qüvvə bu ilahi hökmə qarşı çıxa bilməz: "Çox çəkməz ki, sən öz istəyinə çatarsan".

3. Haqq aşiqliyi aşiqdən öz varlığından keçməyi tələb edir: "Amma çox çətinliklərə düşəcəksən".

Məhəbbət dastanarının bütün süjeti bu ilahi hökmün realizasiyası üzərində qurulmuşdur. Bu cəhətdən haqq aşiqliyi – Allahdan gələn aşiqlikdir və heç kəs onun qarşısında dura bilməz. Ancaq burada çox incə bir məqama fikir vermək lazımdır və bu məqam məhəbbət dastanlarında islami görüşlərin bütün açarı rolunu oynayır. Belə ki, haqq aşiqliyi eyni zamanda Haqqa – Allaha aşiqlikdir.

M.Cəfərli yazır ki, vəhdəti-vücuda görə, ilahi məhəbbətin ali instansiyasını Gözəl – Məşuqə obrazında təcəlla etmiş İlahi ilə vüsal təşkil edir. Aşiq ali substansiya ilə qovuşaraq onda "əriyir", "vahidləşir, "birləşir". Bu baxımdan, məhəbbət dastanlarının adında Aşiqin adının çəkilməsi onların hər ikisini ehtiva edir. Məhəbbət dastanlarında Aşiq obrazı özündə Məşuqu, məşuq isə Aşiqi ehtiva edir. Məşuq Allahı simvolizə edir. Aşiq onun simasında İlahi başlanğıca aşiqdir (5, 141-142). Göründüyü kimi, qəhrəmanın ona buta verilmiş qıza aşiqliyi, əslində, həmin qız obrazında təcəlla edən Allaha aşiqlikdir. Bu cəhətdən məhəbbət dastanlarının iki qəhrəmanı var: İnsan və Allah. İnsan Allaha aşiqdir və o, dastanda Aşiq (Haqq Aşığı) adı ilə simvolizə olunur. Allah isə sevgilidə təcəlla olunan Məşuqdur. Burada məhəbbətin iki paralel planı var: həqiqi və məcazi məhəbbət. Yəni insanın insana (oğlanın qıza) olan məhəbbətində insanın Allaha olan məhəbbəti öz təcəssümünü tapır.

Məhəbbət dastanlarında bütün hərəkət fəallığı Aşiqin üzərində qurulmuşdur. Çünki Allah mütləq substansiyadır, insan ondan qopmuşdur və ona qovuşacaqdır. Bu cəhətdən haqqa aşiqlik məhəbbət dastanlarının bütün elementlərini təsəvvüfi-irfani simvollara çevririr.

M.Qasımlı yazır ki, ayrı-ayrı ifa məqamları və melodeyimlərlə yanaşı, ozanın sənət meydanını aşığa təhvil verməsiylə el sənətkarının yaradıcılıq aləminə təriqət səciyyəli söz-terminlər daxil olmağa başlayır və onlar get-gedə linqvistik və poetik aktivliyi artırıb bir növ ənənə normativi kimi təzahür edir. Hətta bu proses o dərəcədə güclənir ki, şeir sistemi və dastan epik mühitiylə

bərabər klassik aşıq təxəllüslərinin əksəriyyəti də sufi məzmunlu sözlərlə əhatələnir: "miskin", "qul", "xəstə", "divanə", "öksüz-yetim", "yazıq", "abdal", "qərib", "səfil" kimi təxəllüslər /və ya təxəllüs təyinləri/ tanrı qarşısında bəndə "miskin"liyini göstərir" (8, 15). Burada "miskin", "qul", "xəstə", "divanə", "öksüz-yetim", "yazıq", "abdal", "qərib", "səfil" kimi terminlər bütün hallarda haqq aşiqliyi ideyası ilə bağlı olub, onun təcəssümünə xidmət edir. Belə ki:

~ "Miskin" Allah qarşısında bəndənin miskinliyini və haqq aşiqinin bütün gücünün Haqdan gəldiyini;

~ "Qul" aşiqin bir bəndə olaraq bütün varlığı ilə ilahi eşqin qulu olduğunu;

~ "Xəstə" aşiqin bütün varlığı ilahi eşq odu içərisdində yandığını;

~ "Divanə" aşiqin heç nəyə baxmadan öz varlığını yalnız ilahi eşqə həsr etdiyini bildirir.

F.Salim yazır: "Ustad Aşıq Ələsgər demişkən, "tərki-vətən olub", "pür kamal" yiyəsi olmaq aşıqlığın və əslində, aşiqliyin ən ümdə şərtidir. Aşıq Ələsgər "Mərifət elmindən halı gərəkdir" deməklə, əslində həmin ürfani dəyərləri, təsəvvüf ənənələrini nəzərdə tuturdu" (10, 81).

Aşıq Abbas Tufarqanlı deyir:

"Soruşun, qul Abbas, halın necədir?
Gündüzlərim ay qaranlıq gecədir" (1, 67).

Buradan aydın olur ki, aşiq başqalarının anlamadığı, fərq etmədiyi bir "hal" içərisindədir. Elə bir "hal" ki, burada məkanla zaman bir-birinə qarışıb və aşiq başqalarından tamamilə fərqli bir məqamda – "hal" məqamında mövcuddur.

A.Knış yazır ki, "hal" sufi "psixologiyasında" mistikə Allaha doğru gedən yolunda onun iradəsindən və Allahı idrak etməkdə (mərifətdə) və zahidlik praktikasında çatdığı kamillik dərəcəsindən asılı olmayaraq gələn vəziyyətdir (13, 266).

Haqq aşiqi Kərəm də tez-tez bu vəziyyətə düşür: "Az getmişdilər, çox getmişdilər, Kərəmin halı dəyişildi, ürəyi döyünməyə başladı, gözləri qaraldı. Ürəyində dedi: "Əslimə çatmayacağam, ölüb, qürbət ellərdə qalacağam". Aldı, halına münasib, görək, nə dedi:

Haldan-hala düşən viran könlümün
Hər məhləsində bir cahan əyləşmiş.
Gah şah, gəda olar, gah dana, nadan,
Gah hər məhləsində zindan əyləşmiş... (3, 4-45).

S.Rzasoy bu şeirin şərhində yazır: "Göründüyü kimi, sufi Allaha yaxınlaşdıqca ona hal gəlir və bu hal, Kərəmin söylədiyi şeirdən göründüyü kimi, yaradılışın bizə məlum olan səviyyəsi, ağılla dərk oluna biləcək halı deyildir. Burda təklə ümumi, azla çox, zərrə ilə küll və s. başqa ölçülərdə təzahür edir. İnsan eyni zamanda həm kainatın özü halında, həm də onun ünsürləri halında olur" (9, 181).

Dastanda Kərəmin haqq aşiqi kimi bu ilahi zaman-məkan "zolağına", "hal" xronotopuna mütəmadi olaraq düşdüyünü görürük. Dastanda bir məqamda Kərəmin halı çəkdiyi əzablar və düşdüyü uğursuzluqlardan çox pərişan olur. Sofi ondan nə baş verdiyini soruşur: "Kərəm sazı basdı döşünə:

Sofi, nə sorursan mənim halımı?
Yardan ayrılanda şad olmaz könül.
Leylisin itirmiş Məcnuna döndüm,
Hər gecə papağı tac olmaz könül.

Bir dəm səyyah olur, qılınc qurşanır,
Bir dəm turab olub, yerə döşənir,
Bir dəm Haqdan qorxu çəkib, üşənir,
Bir dəm padşahnan bac olur könül...” (3, 61-62).

Göründüyü kimi, “sufiyə “hal” gələndə onun könlü kainatın güzgüsinə çevrilir və sufi özünü kainatın bütün ünsürləri ilə vəhdətdə görür. Vəhdətin bütün varlığı Vahidə (Allaha) bağlıdır: bütün kainat Vahidin zərrələridir. Böyük bir güzgü çilik-çilik olub qəlpələnəndə onun hər qəlpəsi Vahid Günəşin işığını əks etdirdiyi kimi, Allahdan başlanan kainatın da bütün ünsürləri eyni bir ilahi həqiqəti inikas edir. Dünya zahiri gözlə saysız rəng, şəkil və növlərdə görünsə də, könülə hal gələndə bütün saysız ünsürlərin hamısının eyni olduğu görünür. Kərəmin də könlünə hal gəldiyi üçün o, özünü varlığın hər bir ünsüründə, hər bir rəngində, hər bir şəklində görür. Andan-ana bu ünsürlər, onların rəngi, şəkli dəyişir...” (9, 194).

Beləliklə, məhəbbət dastanlarında İslam dini təsəvvüfi-irfani görüşlərə transformasiya olunmuş, başqa sözlə ortodoks ehkamlar heteredoks görüşlərə çevrilmişdir.

X.Hümmətova Yunus Əmrə ilə Mövlana Ruminin ürfani dünyagörüşləri haqqında danışarkən bu məqama toxunaraq yazır: “Başdanbaşa ilahi hikmətlərlə haqqa çağırış olan bu iki sufi şairin poeziyası bir-birinə ideya və məzmunca qaynayıb-qarışmışdır. Bu iki sufi şeyxi sonra yaranan ürfan poeziyasına, sufi şairlərinə, onların yaradıcılığına böyük təsiri olmuşdur. Bu bağlılıq hər iki sufi şeyxinin yaradıcılığının bir mənbədən qidalandığını göstərir. Bu mənbə İslamın müqəddəs kitabı olan Qurani-Kərim və İslam fəlsəfəsidir. Həm Mövlana, həm də Yunus Əmrə yaradıcılığı Quranla başlayıb, Quranla da qapanır” (6, 66-67).

**İşin yeniliyi və nəticəsi:** Göründüyü kimi, sufizmlə İslamın təməlində Allah və Quranın durur. Lakin birmənalı şəkildə təsdiq etməliyik ki, təsəvvüfdə “Allah” ideyası da, “Quran” da öz ilkin müqəddəs mərtəbədə qalmır, dəyişərək yeni bir hadisəyə – heterdoks təlimə çevrilir.

**İşin nəzəri və praktiki əhəmiyyəti:** Tədqiqatın nəzəri əhəmiyyəti ondan folklorşünaslıq, din tarixi, mifologiya, ibtidai fəlsəfə ilə bağlı digər tədqiqatlarda nəzəri qaynaq kimi istifadə imkanları, praktiki əhəmiyyəti isə işdən ali məktəblərdə folklor, din və mifologiyanın tədrisi prosesində praktiki vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan aşıqları və el şairləri. 2 clddə, I s. Bakı, 1983.

2. Azərbaycan dastanları. 5 cilddə, I cild. Tərtib edənlər: M.Təhmasib, Ə.Axundov. Bakı, Lider, 2005, 392 s.

3. Azərbaycan dastanları. 5 cilddə, 2-ci cild. Tərtib edənlər: Ə.Axundov, M.H.Təhmasib (1966). Yenidən işləyib nəşrə hazırlayanlar: Ə.Cəfərli, H.İsmayılov, S.Axundova. Təkmilləşdirilmiş 2-ci nəşri. Bakı, "Çıraq", 2005, 440 s.

4. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı, Elm, 2000, 264 s.

5. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının struktur poetikası. Bakı: Nurlan, 2010, 404 s.

6. Hümmətova X. Mövlana və Yunus Əmrə / Elmi Axtarışlar (Folklorşünaslıq, filologiya, fəlsəfə, tarix, incəsənət və nəzəriyyə aspektləri), XXIII kitab. Bakı, Səda, 2006, s. 62-67

7. Xavəri S., Quliyev H., Qarayev S. Folklorun funksional strukturu: multidissiplinar kontekst. Bakı, Elm və təhsil, 2016, 496 s.

8. Qasımlı M. Aşıq sənətində təsəvvüf simvolikasının sinkretik təzahürü // "Ozan dünyası" N 3 (18), 2014

9. Rzasoy S. Azərbaycan dastanlarında şaman-qəhrəman arxetipi. Bakı: Elm və təhsil, 2015, 436 s.

10. Salim (Baxşəliyev) F. Milli yaddaş sistemində ürfan və təsəvvüf. Bakı, Elm və təhsil, 2010, 460 s.

11. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı, Elm, 1972, 400 s.

12. Kaya D. Mahmud ile Nigar Hikayesi Üzerine Karşılaştırmalı Bir Araştırma. Ankara, 1993, 231 s.

13. Кныш А. Очерк "Хал" / Ислам. Энциклопедический словарь. Москва, "Наука", 1990, с. 266

***Çapa tövsiyə edən:*** *Fil.e.d., prof. Seyfəddin Rzasoy*